# Ərəb İşğalına Qarşı Azərbaycanda Babək üsyanı və “Xürrəm” termini



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

III Yazı

***Qeyd etmək lazımdır ki, məhz Abbasi Dövlətində Mötəsimin (Əbu İshaq Məhəmməd ibn Harun ər-Rəşid) xəlifəliyi (833-842-ci illər) dövründə ölkənin ali siyasi rəhbərliyində türk mənşəli əhalidən olanların sayı artmışdı. Tanınmış alim əs-Suyuti bu haqda yazır: ‘İlk dəfə olaraq Mötəsim türk milli paltarı geymiş,başına tac qoymuşdu”.Anası türk qızı olan bu hökmdar,orduda türklərin nüfuzunun möhkəmləndirilməsinə çalışırdı.Tarixi mənbələrdə göstərilmişdir ki, Mötəsimin belə siyasət yürütməsi paytaxt əhalisi,xüsusi ilə aristokratiya arasında ciddi narazılıq törətmişdi.Daxildə, əsasən ölkənin paytaxtı Bağdadda iğtişaşların kəsilmədiyini görən xəlifə və onun saray adamları yeni paytaxt salmaq qərarına gəlirlər.Beləliklə,qədim Samarra şəhəri abadlaşdırılır və Xilafətin iqamətgahına çevrilir (836-892-ci illər).Müasir dövr ərəb tarixçiləri Samarranın küçə və dalanlarını,paytaxt əhalisinin məişət tərzini və zövqlərini təsvir edərkən xüsusi olaraq göstərirlər: ‘Samarra daha çox türk şəhərlərini xatırladırdı”.***

Hazırda İraqda yaşayan Oğuz türkləri olan türkman əhalinin ulu babaları Abbasilər Xilafətinin o dövründə həm orduda, həm də mülki həyatda öz istedad və qabiliyyətlərini nümayiş etdirmiş,xalq arasında ad çıxarmışlar.O dövrdə görkəmli sərkərdələr kimi tanınan Afşin,Bizansla müharibədə yüksək şücaət göstərmiş komandanlar Aşnas,Eytax,Buğa onlardan idilər.

***Mötəsimin xəlifəliyi dövründə hərbi sahədə bir sıra böyük uğurlar qazanılmışdı.Bizansla aparılan müharibələr Abbasi Xilafət ordusunun qələbəsi ilə başa çatmışdı.Azərbaycan Türklərinin qəhrəman oğlu Babəkin rəhbərliyi altında baş vermiş və Xilafəti çox böyük sarsıntıya düçar etmiş böyük xalq hərəkatı Abbasilər dövlətini təməldən silkələmişdi.Bu göstərilən tarixi hadisələr ərəb tarixçisi Dinəvəriyə (?-895) haqq verirdi ki, yazsın: ‘Doğrudan da,Mötəsimin xəlifəliyi dövründə edilən istilalar əvvəlki heç bir xəlifənin dövründə olmayıb”.Xəlifə Mötəsim Bizans qoşunları ilə savaşda öz hərbi məharətini göstərən istedadlı sərkərdə Afşin Heydər ibn Kavusu 835-ci il iyunun 3-də xürrəmilərə qarşı müharibə edən bütün qoşunların baş komandanı təyin etdi.***

Xəlifə bu müharibə üçün vəsait əsirgəmirdi.Afşin ata minəndə,yəni xürrəmilərlə savaşa girəndə-gündə 10 min dirhəm,hərbi əməliyyat olmayanda isə 5 min dirhəm pul alırdı.Əz-Zəhəbi bildirir ki,təkcə 837-ci ildə Mötəsim Babək ilə müharibəyə bir milyon dirhəm xərcləmişdi.Afşinin ordusu arası kəsilmədən ərzaq,sursat və silahla təchiz olunurdu.

## Babək ordusunda uğursuzluqlar

Abbasi Xilafət ordularının baş komandanı Afşin casus məlumatı toplamağa xüsusi diqqət verirdi.Afşin öz casuslarından başqa Babəkin casuslarını da öz tərəfinə cəlb edərək,xürrəmilərin yeri, istehkamları və manevrləri haqqında məlumat üçün onlara daha artıq pul verirdi.

Babək öz doğma yerlərində əməliyyat keçirib bu yerlərə yaxşı bələd olan qoşunları,qalaları möhkəmləndirməklə məşğul olan ərəb qarnizonlarına tez-tez hücum edirdilər.Əbu Səid Məhəmmədin qoşununa qarşı Babək Müaviyənin komandası altında bir xürrəmi ordusu göndərilmişdi.O,ərəblərin bir neçə istehkam məntəqəsinə basqın edib əsir tutaraq öz bazasına qayıtdı.Əbu Səid Məhəmməd öz qoşunlarını topladı və Müaviyənin əsgərlərini təqib edərək,Sindabay yerində ona çatdı.Savaşda ərəblər Müaviyənin ordusunu məğlub etdilər.Əsir alınan xürrəmilərin başları kəsilib paytaxta göndərildi.

Tarixçilər deyirlər ki, bu savaş Xilafətin nizami qoşunları ilə müharibədə xürrəmilərin uğradığı ilk məğlubiyyət idi.

Bu zaman Babəkin yerli hökmdarlar sırasından olan müttəfiqləri ondan ayrılmağa başladılar.Üsyan qaldırmış xalqın zəhimli qüvvəsindən dəhşətə düşüb,öz torpaqlarının bütöv qala bilməyəcəyindən qorxan və Xilafətin gördüyü tədbirlər nəticəsində Babəkin darmadağın ediləcəyini duyan yerli hökmdarlar öz müttəfiqinə tez xain çıxdılar.Babəkə xəyanət edənlər arasında Təbriz və Şahi qalası hökmdarı Məhəmməd ibn əl-Bais də var idi,halbuki bu adam Babəkin sərkərdələrindən İsmanın qızını alıb onunla hətta qohum olmuşdu.İbn əl-Bais,xəlifə qarşısında özünə bəraət qazandırmaq üçün “Mötəsimə (məktub) yazıb ona öz sədaqətini bildirir və onu əmin edirdi ki,Babəkə və onun tərəfdarlarına qarşı lazımi tədbirlər görəcəkdir”.

Bir dəfə İsmanın dəstəsi adətən olduğu kimi ibn əl-Baisin mülkündə gecələməyə qalmışdı.İbn əl-Bais həm İsmanın özünü,həm də onun döyüşçülərini içirtdi və sərxoş olub özlərini bilmədikləri halda əl-qolu bağlı Şahi adasına apardı.Orada ibn əl-Bais bütün xürrəmiləri qırdı,İsmanı isə Samarraya xəlifənin yanına göndərdi.İşgəncə edilən İsma xürrəmilərin vətəni Azərbaycan və Bəzz qalası haqqında onun yolları, dağ keçidləri və zəif yerləri barəsində bildiyini xəlifəyə söylədi,yəni xəlifə ərəblərin xürrəmilərə qarşı müvəffəqiyyətli müharibəsinə kömək edə biləcək çox mühüm məlumatı İsmadan ala bildi.

Sonralar xəlifə Mütəvəkkilin hökmranlığı dövründə İbn əl-Bais Abbasi Xilafətindən yenidən ayrıldı,lakin axırda 850-ci ildə öz ömrünü zindanda başa vurdu.

Beləliklə,Babək ikinci məğlubiyyətə uğradı.O,öz sərkərdələrindən birindən məhrum oldu.İsmanın xürrəmilər barəsində xəlifəyə verdiyi məlumat isə Babəkin hərəkətlərini xeyli çətinləşdirdi.

Babəklə Afşin arasında Ərşəkdə baş verən toqquşma zamanı Afşin Babək tərəfdarlarının bir çoxunu,deyirlər ki,mindən artığını qılıncdan keçirdi.Babək ordularının üçüncü məğlubiyyəti idi. O, bu məğlubiyyətdən sonra Muğana çəkildi,oradan isə özünün Bəzz adlanan şəhərinə yollandı.

## Babəkin Afşinin ordusu ilə müharibələri

***Ərəb ordularının baş komandanı Afşin 835-ci il ərzində Bəzzə yaxınlaşma yollarındakı istehkam məntəqələrini bərpa edir və yenisini qururdu.Eyni zamanda ərəb və xürrəmi orduları arasında kəşfiyyat xarakterli toqquşmalar olur,bəzən bu, bəzən də o biri tərəf uğur qazanırdı.Bu yerlərə yaxşı bələd olan xürrəmilər ərəb qoşunlarının təchizat yollarını tutur,ərzaq və silah karvanlarını ələ keçirməklə ərəbləri çətin vəziyyətdə qoyurdular,çünki ‘karvanda olanların hamısını məhv edirdilər”.Nəticədə Afşinin qoşunları daim aclıq və susuzluqdan əzab çəkirdi, “cismən və ruhən məğlub olurdu”.Babəkin sərkərdələrindən Tərxan yenidən ərəblərin karvanına hücum edib mühafizlərini qırır və bütün yükü ələ keçirib ərəbləri çətin vəziyyətə salır.Afşin məcbur olur ki,ərzaq göndərilməsini Məhəmməd ibn əl- Baisdən xahiş etsin.Xürrəmilər yeni karvanı da ələ keçirirlər.Onda Afşin kömək üçün Şirvan hakiminə müraciət edir; o,ərzaq karvanı göndərməklə ərəb qoşunlarının imdadına çatır.***

836-cı ildə Həştadsər dağı yaxınlığında xürrəmilərlə türk sərkərdə Buğa əl-Kəbirin komandası altındakı ərəb ordusu arasında müharibə olmuşdu.Təkəbbürlü Buğa,Afşinin əmrinə itaət etməyərək şəxsən xürrəmilərlə savaşmaq qərarına gəlmiş və bunun cəzasını görmüşdü.Əvvəlcə Babək Buğanın min nəfərlik yemdaşıyan dəstəsini məhv etdi,sonra ərəb ordusu arasında müharibə olmuşdu.Təkəbbürlü Buğa,Afşinin ərəb ordusunun ikisini seçdi və baş vermiş əhvalatı Afşinə söyləməyə göndərdi.

Buna baxmayaraq,Buğa öz ordusunu xürrəmilərə qarşı hərəkətə gətirdi;xürrəmilər isə ərəbləri izləyirdilər;dağ cığırından keçib gücdən düşən ərəblər təpələrdən birinə qalxmağa başlayanda xürrəmilər hücum edib onları mühasirəyə saldılar və ərəblər onlar üçün əlverişli olmayan şəraitdə vuruşmağa məcbur edildilər.Buğanın ordusu məğlub edildi,bir neçə sərkərdə öldürüldü.Buğanın özü isə qaçdı.Xürrəmilər bütün ərəb ordugahını,pul və silahları ələ keçirtdilər.Bu məğlubiyyətdən sonra Afşin öz qoşunlarını Bərzəndə çəkdi.

836-cı ilin qışında xürrəmilər öz sərkərdələrindən Tarxanı da itirdilər.Bu igid türk ərəbləri lap təngə gətirirdi.Özü də türk olan Afşin tez başa düşmüşdü ki,Tarxan xürrəmilər ordusunun başında qalarsa,ərəblər onları məğlub edə bilməyəcəklər.Odur ki, Tarxanın hərəkətlərini daim izləyir və onu sıradan çıxartmaq üçün fürsət axtarırdı.Nəhayət,buna müvəffəq oldu.Tarxan adətən qış aylarını Həştadsər dağı yaxınlığında öz kəndində keçirirdi.Afşin casuslardan öyrənəndə ki,Tarxan Babəkdən icazə alıb kiçik bir dəstə ilə öz mülkünə yola düşmüşdür,türk olan bir casusunu onun ardınca göndərdi.Casus gecə vaxtı Tarxana hücum edib onu öldürdü və başını kəsib Afşinə göndərdi.Tarxanın ölümü Babək və xürrəmilər üçün böyük bir zərbə oldu.Xürrəmilərin belə igid sərkərdəsinin ölümündən sonra ,ərəblər daha cəsarətli hərəkət etməyə,xürrəmiləri isə dalbadal məğlubiyyətə uğratmağa başladılar.

Abbasi xilafətinə qarşı illər boyu davam edən mübarizədə 837-ci il gəlib çatdı.

Həmin ildə Afşin xəlifədən böyük bir qüvvə aldı; köməkçi qüvvələrə böyük türk sərkərdələrindən Cəfər ibn Dinar əl-Həyat və İtah başçılıq edirdilər.Xəlifə onlara Afşinə qoşunun maaşı və təchizatı üçün 30 milyon dirhəm pul da göndərmişdi.

Köməkçi qüvvənin gəlmiş olmasına baxmayaraq,Afşin xürrəmilərlə müharibə taktikasını bütünlüklə dəyişirdi.Müharibənin uğuruna hələ də inanmayan xəlifə Mötəsim Afşinə bir-birinə zidd müxtəlif sərəncamlar verirdi:Afşin də bu sərəncamları elə yerinə yetirirdi ki,az sonra ərəb qoşunları arasında komandana qarşı narazılıq başlandı.Doğrudan da,xürrəmilərin qalası Bəzzdən ərəbləri ayıran son dörd fərsəx (təxminən 30 kilometr) yolu ərəblər bir ilə keçmişdilər.Afşin əsgərlərinin narazılığına baxmayaraq,verdiyi sərəncamlarında daim xəlifəyə istinad edirdi və xürrəmilərlə savaşa girməyə icazə vermirdi.Yalnız xüsusi dəstələr istehkamlar qurmaq və Bəzzə tərəf yol çəkməklə məşğul idi,çünki yolun olmaması ərəb qoşunlarının ərzaq,su və yem ilə təchiz edilməsini daim təhlükə qarşısında qoyurdu.Çox vaxt ərəblər bircə qurudulmuş çörəklə dolanırdılar.Bunu bilən Babək bir dəfə Afşinə bir adamla bir yük tərəvəz göndərdi.Afşin Babəkin bu hədiyyəsini məmnuniyyətlə qəbul etdi və onun göndərdiyi adama icazə verdi ki,ərəb düşərgəsindəki istehkamları baxıb görsün.Xürrəm ətraflı baxdıqdan sonra,Afşin onu geriyə buraxdı və xahiş etdi ki, “ qardaşı” Babəkə onun salamını yetirsin.

***Afşinin Babəkə bu cür münasibəti ərəb qoşununa və xüsusilə sərkərdələrinə şübhəli görünməyə bilməzdi.Buna görə,islamın və ərəblərin düşməninə qarşı müharibədə Afşinin hərəkətləri çox tez-tez,türk sərkərdə Cəfər əl-Həyyat tərəfindən kəskin surətdə tənqid olunurdu.***

Sonralar qeyd edildiyi kimi,Afşin Babəklə müharibənin axırıncı ilində Təbəristan hakimi Məzyərlə olduğu kimi gizli danışıqlar aparırdı və məqsədi Xilafət hakimiyyətini məhv etmək idi.Lakin Afşinin Babəklə birlikdə qəsd düzəltməkdə iştirakı yalnız Məzyərin və Afşinin özünün mühakiməsində aşkara çıxdı.Belə bir qəsdin mövcud olduğunu ərəb mənbələri də təsdiq edir.Əbu Mənsur əl-Bağdadi bildirir ki,Afşin “Babək ilə gizli qəsd düzəltmişdi”.Mötəsim Afşini Babəkə qarşı müharibəyə göndərəndə “belə düşünürdü ki,o müsəlmanlara səmimi münasibət bəsləyir.Gizlində isə o (Afşin) Babəklə əlbir idi və ona qarşı müharibəni uzadırdı və müsəlman qoşunlarında çatışmazlıq olduğunu ona hiss etdirirdi,o da (Babək də) düşmən qoşununun çoxunu məhv edirdi”.Yalnız xürrəmilərlə müharibə qurtardıqdan sonra “xəlifə,Afşinin satqınlığını və Babəklə müharibə zamanı onun müsəlmanlara xəyanət etdiyini öyrəndi”.

***Lakin Abbasi Xilafətinə qarşı əlbir əməliyyat keçirmək barəsində Afşin,Babək və Məzyər arasında gedən gizli danışıq və yazışmalar bir nəticə vermədi,odur ki,Afşin də özünü tamamilə ifşa etməmək üçün Bəzzə hücum etmək əmrini verməyə məcbur oldu.***

***Cəfər əl-Həyyat,Əbu Səid və Buxaraxudatın komandası altındakı türk qoşunları və könüllülər Bəzz qalasını mühasirə etdilər.Şəhər üçün uzunsürən müharibə başlandı,bu zaman xürrəmilər qaladan çıxıb ərəbləri hiss ediləcək tələfat verməyə məcbur edirdilər.Ərəblər mancanaqları Bəzzin hasarlarına yaxınlaşdırdılar,işçi korpusu isə hasarları sökərək daşları çıxarmağa başladı.***



(ardı var)